MƏTBUAT ÜÇÜN AÇIQLAMA

Ref.No: AİL - 03/14 17 yanvar 2014-cü il

# ESPFC LAYİHƏSİ DÖVLƏT VƏSAİTLƏRİ ÜZƏRİNDƏ KƏNAR NƏZARƏT MÖVZUSUNDA KONFRANS KEÇİRİR

Avropa Birliyi tərəfindən maliyyələşdirilən «Dövlət Vəsaitlərinə Effektiv Nəzarət Sistemi» (İVENS) layihəsi çərçivəsində ictimai vəsaitlər üzərində ali audit institutlarına dair beynəlxalq təcrübəni təqdim etmək və Azərbaycan Respublikasında kənar nəzarəti təkmilləşdirmək üçün layihə çərçivəsində hazırlanmış tövsiyələri müzakirə etmək məqsədi ilə 17 yanvar 2014-cü il tarixində konfrans təşkil olunmuşdur.

Tədbir zamanı dövlət maliyyə siyasəti və idarəetmə sahəsində beynəlxalq təcrübənin tədqiqi üzrə nəticələr və kənar nəzarətin səmərəliliyinin artırılmasına dair layihə çərçivəsində hazırlanan tövsiyələr paketi təqdim və müzakirə olundu. Konfrans zamanı səslənən fikirlər layihənin son mərhələsində parlamentə təqdim olunacaq yekun tövsiyələr sənədində öz əksini tapacaq.

Tədbirdə Hesablama Palatasının rəhbərliyi və mütəxəssisləri, millət vəkilləri, müxtəlif nazirliklər, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişdir.

İVENS layihəsinin əsas məqsədi kənar audit və nəzarətin səmərəliliyini artırmaq, eləcə də ictimai vəsaitlərin xərclənməsinə nəzarəti həyata keçirən müvafiq dövlət qurumlarının, o cümlədən Milli Məclis və Hesablama Palatasının hüquqi və institusional potensialını gücləndirməkdir. Avropa Komissiyası tərəfindən maliyyələşən İVENS layihəsi İqtisadi Tədqiqatlar Mərkəzi, İqtisadi və Sosial İnkişaf Mərkəzi, Azad İqtisadiyyata Yardım İctimai Birliyi, İqtisadi və Sosial Təşəbbüslərdə Tərəfdaşlıq ilə birlikdə Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu tərəfindən həyata keçirilir.

# # #

17, Nəcəfqulu Rəfiyev küçəsi, mən.2 Bakı, Azərbaycan Az 1025
Tel/Faks: +99412 490 05 66 Email: office@edf.az URL: www.edf.az